# "KOROĞLU" ŞEİR DİLİNİN ESTETİK SEHRİ VƏ ELMİ TƏHLİLİ

**"Koroğlu"nun dil sənətkarlığını tarixi linqvopoetika ilə qırılmaz əlaqədə götürüb təhlildən keçirmək, dastanın üslubu ətrafında mövcud mülahizələr və nəzəri müddəaları ümumiləşdirmək bu gün də filologiyamızın vacib problemlərindəndir. Misilsiz tarixi folklor abidəsini bugünkü elmi, bədii-estetik mövqedən aydınlaşdırmaq xüsusi filoloji fəhm tələb edir, linqvopoetikanın əsas keyfiyyət və estetik maraqlarına maksimum diqqətlə yanaşma prinsipini şərtləndirir. Nəhəng xalq yaradıcılığının dil özəlliklərinə nüfuz etmək, onun üslubi meyillərini, bədii obraz yaratma qanunauyğunluqlarını, ideya-estetik səviyyəsini dərindən araşdırmaq bütövlükdə qədim və zəngin ədəbiyyatımızın tarixi köklərində dayanan yaradıcılıq proseslərinə həssas münasibət deməkdir ki, bu amil də tədqiqatçılardan xüsusi diqqət, keçmişimizə, ədəbi irsə maksimum qayğıkeşlik tələb edir. Bu diqqəti və qayğıkeşliyi biz filologiya üzrə elmlər doktoru, professor Əzizxan Tanrıverdinin "Koroğlu"nun şeir dili" adlı sanballı monoqrafiyasında dərindən duyur və ilk təəssüratdan bu qənaətə gəlirik ki, zəngin xalq təfəkkürü məhsulunun bədii-üslubi cəhətdən açıqlanması və şərhi qarşısında daşıdığı ali, məsul vəzifəni müəllif müntəzəm, dərindən və hərtərəfli işıqlandırmaqla, çağdaş bədii fikrin, linqvistik poetikanın inkişafı ilə ayaqlaşıb ənənəvi-tarixi sənət hadisələrini qiymətləndirmək və izah meyarlarını daha da təkmilləşdirməklə yerinə yetirə bilmişdir.**

Müəllifin qənaətlərinə görə, istənilən dövrə aid poetik dil, eyni zamanda tarixi kateqoriyadır və o da folklor nümunəsinin özü kimi tarixi-xronoloji istiqa-mətdə inkişaf etmişdir. Dil mədəniyyətinin, bədii təsvir və ifadə üsullarının təkamülünü səciyyələndirməklə konkret zaman kəsiyinə məxsus ədəbi nümunənin estetik cizgilərini açıb şərh etmək, tarixi kontekstdə ümumiləşdirmək mümkündür. "Koroğlu" eposundakı nəzm parçaları tarixi-linqvistik, xüsusən də linqvopoetik ifadə imkanları baxımından geniş və sistemli şəkildə araşdırılmayıb" (səh.26) - deyən müəllif dastanın dil sənətkarlığı məsələlərinə, üslubi-poetik problemlərinə ciddi aspektlərdə yanaşma zərurətinə diqqət çəkir. Çünki istənilən bədii təfəkkür məhsulunun həyat vəsiqəsi onun nümunəvi dilidir. Ən yaxşı sənət nümunələri, o cümlədən "Koroğlu"nun nəzm hissələri dilə yüksək poetik tələblər səviyyəsindən yanaşmaq və bədiilik ölçülərinə ciddi əməl olunmaq prinsiplərindən törəmişdir. Dil sənətkarlığını dastanın estetik siqləti, bədii məramının əhatəliliyi ilə bağlayan müəllif şifahi xalq ədəbiyyatının aktual nəzəri-metodoloji problemlərinin araşdı-rılmasının qarşıya "Koroğlu" şeir poetikasının elmi konsepsiyasını yaratmaq məqsədi qoyduğunu da xüsusi qeyd edir.

Ə.Tanrıverdi "Koroğlu" dastanının bədii-estetik təhlili sahəsində qazanılan nailiyyətlərə nəzər yetirir, əldə edilən qabaqcıl təcrübəni, səmərəli axtarış və tapıntıları ümumiləşdirir ki, bu da "Koroğlu"nun şeir dilini geniş estetik sistem daxilində araşdırmağa, gəldiyi elmi qənaətləri nəzəri cəhətdən bütün təfərrüatları ilə yekunlaşdırmağa, dastanın forma mədəniyyəti haqda mükəmməl fikir yürütməyə imkanlar açır. T.Hacıyev, N.Cəfərov, F.Xalıqov, A.Xodzko, M.Qasımlı, İ.Sadıq, A.Qurbanov və G.Şirinovanın əsərləri timsalında Ə.Tanrıverdi "Koroğlu" şeirlərinin linqvistik nöqteyi-nəzərindən öyrənilməsinə, bu sahədə linqvistik poetikanın fəallaşmasına, problemin daxili mahiyyətinə daha dərindən nüfuzetmə cəhdlərinə ciddicəhdləri, onun səmərəli nəticələrini yeni bədii sistem və üslubi sanballılıq mövqeyindən dəyərləndirir. Göstərilən müəlliflərin istedadla yazılmış və öz elmi-nəzəri səviyyələrinə görə fərqlənən monoqrafiyaları, müxtəlif münasibətlərlə qələmə alınmış məqalələr "Koroğlu" şeirinin elmi tədqiqinin zənginləşdirilməsinə müsbət təsir göstərsələr də, burada şeirlərin dil sənətkarlığına ötəri nəzər salın-mışdır və bu səbəbdən dastanın dil və üslub xüsusiyyətlərinin şərhinin nisbətən solğun və pərakəndə səciyyə daşıdığına diqqət yönəldilmişdir.




"Koroğlu" dastanının linqvistik cəhətdən saf-çürük edilməsinə, bu problemi filologiyamızın yeni yüksəlişi fonunda müasir elmi-nəzəri səviyyədə təfəkkür süzgəcindən keçirilməsinə ciddi ehtiyac duyan Ə.Tanrıverdi təhlil predmetinə çevirdiyi şeir dilinin psixoloji-semantik dərinliyini əyaniləşdirmək və onun bədii-idraki siqlətini nümayiş etdirmək vəzifəsini üzərinə götürmüş, xüsusi filoloji tədqiqatlarla "Koroğlu"şünaslığa dəyərli töhfə bəxş etmişdir.

"Koroğlu" eposundakı şeirlərin semantikasını ciddi meyarlarla təhlil edən müəllif dastandakı qəhrəmanlıq motivləri, igidlik və cəsurluqla bağlı bədii gerçəklikləri yüksək bədii təfəkkürlə dərk edərək, mükəmməl poetik şüurla mənim-səyərək ideya-estetik mövqedən yetkin formalarda təzahür etdirmişdir. O, mərdlik və mübarizlik motivlərinin qabarıq ifadəsində şeir mətnlərinin böyük rol oynadığını göstərməklə bərabər, poetik mətndə dil materiallarının yerinə görə uğurlu sistemləşdirilməsi və mənalandırılmasının rolunu xüsusi olaraq qeyd edir. Eposdan bir qızıl xətt kimi keçən və onun ideya-bədii xüsusiyyətlərinin aşkarlan-masında mərkəzi yer tutan qılınc və at obrazlarının təhlili müəllifin dastan poetikasına dair görüş dairəsinin genişliyindən xəbər verir. Dəmirçioğlu, Giziroğlu Mustafa bəy, Tüpdağıdan, Kürdoğlu, Eyvaz, Qəssab Alı və İsabalı haqqında, yaxud onların dilində səslənən şeirin semantik yükünün açılışında bədii mətləbin əsas istiqamət və predmeti konkret dil faktları ilə dürüstləşdirilir. Yeri gəldikcə qəhrəmanların daşıdığı adın etimologiyası ilə onun şücaəti və dönməzliyi arasındakı uyğunluğu qabarıq formalarda nəzərə çatdırır, sözün yaranması ilə bağlı açıqlamalarda linqvistik izahsız keçinə bilmir: "Tüpdağıdan antroponimi "tüplər dağıdan" birləşməsinin inkişafı əsasında yaranıb. Konkret desək, igidlik məzmunlu birləşmə semantikasına görə antroponimik vahidə transformasiya olunub" (səh.45).

Göründüyü kimi, şeir materiallarının poetik tərəflərini tapıb tələb olunan səviyyədə ümumiləşdirmək xüsusi yaradıcılıq səriştəsi vacib olduğu kimi, onomastik vahidlərin semantik kökünü aşkarlayaraq onu bədii mündəricə və poetik mətləblə sintez etmək, obrazlar sistemi ilə qaynadıb-qarışdırmaq da filoloji peşəkarlıq, zəngin təcrübə və dərin nəzəri hazırlıq tələb edir. Məhz buna görə müəllifin, "Koroğlu" eposundakı şeirlərin semantikası barədə təhlillərinin bir mühüm məziyyətini - sözlərdə, ifadələrdə xalq təfəkkür tərzinin özünəməxsus-luğunu nəzərə çarpdırmaq meyilini, tədqiqat predmetinin daxili məğzi haqqında daha mükəmməl təsəvvürlər formalaşdırmaq cəhdlərini ayrıca qeyd etmək yerinə düşər.

Monoqrafiyada xalqın poetik təfəkküründə büllurlaşaraq ana vətəni simvollaşdıran "Çənlibel" toponiminin etimoloji şərhi poetik ümumiləşdirmə vasitəsinə çevrilmiş, konkret dil faktları və deyim özünəməxsusluğu ilə təzahür edən qəhrəmanlıq məskənlərinə bağlılıq həyəcanlarının ifadə forması doğma yurdla bağlı böyük həqiqətlərin, təsirli mündəricənin tərcümanına çevrilmişdir. At kultu, at və qəhrəman obrazlarının vəhdəti, atın kultlaşdırılması, "insan, dağ, qurd obrazlarının sintez şəklində təzahürü" (səh.68) ilk bağlı mülahizələrdə estetik və elmi təfəkkür üzvi şəkildə birləşir. Birbirini tamamlayan bu birlik "Koroğlu" şeirinin mövzu əlvanlığını, göstərilən faktların daxili məzmununu diqqət mərkəzinə çəkir. Saza vurğunluq orijinal şəkildə və məzmunda mənalandırılır, nəzəri-estetik kateqoriyalar işığında təhlil edilir. Saz və qılıncın vəhdəti xalqın fiziki qüdrəti ilə zəngin mənəvi aləminin, vuran qolu ilə yaşamaq-yaratmaq ruhunun birliyi kimi götürülüb qəhrəmanlığın fəlsəfi mündəricəsi üzərində ümumiləşdirmələr aparılır. "Koroğlu" şeirləri üçün doğma və əziz olan saz obrazının emosional çalarlarını müəllif xalq ruhunun, qəhrəmanların mənəvi qünyasının həyati və poetik gücünün təsdiqi kimi dəyərləndirir.

"Koroğlu" şeir mətnlərini ayrı-ayrı mövzular və ya mövzu istiqamətləri üzrə təsnif etməklə onların təravətli üslubi cizgilərini, emosional çalarlarını aşkarlamaq meyili Ə.Tanrıverdinin şeir dilinin təhlilinə verdiyi təhlilin məğzini, pozitiv tərəfini təşkil edir. Tələbkar tənqidçi sözü şeirlərin ən gizli üslubi qatlarına nüfuz etməklə onun geniş linqvopoetik təhlilinə xüsusi diqqət yetirir, tədqiqatçının mühüm filoloji faktları sərrast qiymətləndirmək vərdişlərini büruzə verir. Bunu biz kitabın saf eşqin tərənnümünə, dostluq və qardaşlıq duyğularının təcəssümünə, müəllifin kifayət qədər diqqət və əhəmiyyət verdiyi sonsuzluq dərdlərinin, övladsızlıq iztirablarının konkret dil ünsürlərinin analizi ilə müşayiət olunan açıqlamalara həsr olunmuş səhifələrdə daha qabarıq duyuruq.

"Koroğlu" eposundakı nadir şeir incilərini xüsusi həssaslıq, tələbkarlıq və yüksək prinsipial nəzəri meyarlarla təhlilə cəlb edən müəllif uzunillik, zəngin elmi təcrübəsini, mühakimə və qənaətlərini ümumiləşdirərək monoqrafik tədqiqatın gözəl nümunəsini yaratmışdır.

Eposdakı şeirlərin bütün mövcud variantlarını təmkin və diqqətlə nəzərdən keçirməklə müəllif daxili guşələrinə nüfuz etdiyi poetik nümunələrin lirik vüsətini, poetikasını canlı, qiymətli ənənələrə müraciət etməklə bu misilsiz sənət abidəsinin şifahi xalq yaradıcılığının daha qədim nümunələri, klassik şeir ənənələri, aşıq şeiri ilə bağlılığı barədə fikir və düşüncələrini də oxucularla bölüşür. Qurbani və M.P.Vaqif kimi bədii söz korifeylərinin yaradıcılığı ilə "Koroğlu" şeirləri arasındakı ümumi poetik motivləri, ideya-bədii əlaqələri, tipoloji münasibətləri, janr-üslub oxşarlıqlarını da ayrıca qeyd edir, onların məna və ifadə planına görə yaxınlıq faktlarına diqqətimizi cəlb edir. Ə.Tanrıverdi şeirlərin həqiqi dəyərini, estetik özünə-məxsusluğunu dastanın hüdudları xaricinə çıxarmaqla, bədii-üslubi meyilləri daha qədim ədəbi abidələrin dili ilə təmasda öyrənməklə ədəbiyyatımızın sənətkarlıq baxımından zənginləşmə meyilləri, bədii-estetik konsepsiyaları haqqındakı təsəvvürlərimizi genişləndirir. Bu baxımdan "Koroğlu"-nun şeir dilinin "Dədə Qorqud kitabı" və Qurbaninin poeziyası müstəvisində mütəxəssis təhlilinə çevrilməsi qabarıq nəzərə çarpan məziyyətlərdəndir. Öz əsrinin poetik cizgilərini, lirik nəfəsini dolğun əks etdirən "Kitab" və Qurbani yaradıcılığı ilə "Koroğlu" şeiri arasındakı dil-üslub oxşarlıqları, semantik-struktur əlaqələri, süjet və obrazlar sisteminin üst-üstə düşmə məqamları ilə əlaqədar problemlərə kompleks və sistemli şəkildə yanaşılmış, bunun vasitəsilə "Koroğlu" eposunun genezisi və tipologiyası barədə müəyyən təsəvvür formalaşdırma niyyətini gerçəkləşdirmişdir. Dil faktlarına istinadən türk epos təfəkkürünün qədimliyi və zənginliklərini üzə çıxarmaq tədqiqatın diqqətəlayiq faktlarındandır.

**(ardı var)**

**Məhərrəm Hüseynov**
**filologiya üzrə elmlər doktoru**